*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 580-584*

https://doi.org/10.62837/2025.10.580

**NƏRMIN ELŞƏN QIZI MƏHƏMMƏDOVA**
***Odlar Yurdu Universiteti***
***Azərbaycan ədəbiyyatı kafedrası***
***e-mail:nerminmehemmedova77@gmail.com***
***Orcid İd: https://orcid.org/0009-0000-0543-8739***

# MEHDİ HÜSEYNİN "ABŞERON" ROMANI TƏHKİYƏ STRUKTURUNDA FOLKLOR JANRLARI

***Açar sözlər:*** *Mehdi Hüseyn, folklor, roman, janr, təhkiyə*

***Xülasə***

Folklor janrı xalqların şifahi poetik yaradıcılığıdır. Xalq biliyi mənasını ifadə etməkdədir, kollektiv yaradıcılıq məhsuludur. Müəllifləri məlum olmayan ədəbiyyatdır. Azərbaycan xalqının ruhundan süzülən mədəniyyət deməkdir. Görkəmli ədib, nasir, dramaturq Mehdi Hüseyn (1909-1965) yaradıcılığında folklor janrını diqqət mərkəzində saxlamışdır. Ədibin romanları, pyesləri və hekayələrində folklor motivlərindən məharətlə istifadə etmişdir. Xalq yaradıcılığından çıxış edərək insan əməyini, xalq təfəkkürünü riqqətə gətirmişdir.

***Tədqiqatın məzmunu:*** məqalədə müəllifin poetik yaradıcılığı, folklor ədəbi nümunələrindən nə dərəcədə ustalıqla ifadə etməsi göstərilmişdir. "Abşeron" romanında təsvir edilmiş həyat lövhələri müəllif yaradıcılığı ilə qarşılıqlı şəkildə əks olunmuşdur. Beləliklə, folklor janrına daxil olan atalar sözləri, məsəllərin və.s istifadə məqsədi, məzmunun açılmasına xidmət etməkdə rolu təqdim edilmişdir.

***Mövzunun aktuallığı:*** Mehdi Hüseynin "Abşeron" romanında təhkiyə strukturu, folklor təhlil olunmamışdır. Məhz "Abşeron" romanında təhkiyə strukturundan nə məqsədlə istifadə olunması, əsərdə folklorun bütün mövcudluq prinsiplərini aşkarlamaqdan ibarətdir. *"Abşeron"* romanı folklor janr yaradıcılığı strukturuna uyğun təhlil edilmişdir.

***Tədqiqatın metodları:*** əsərin təhlil olunmasında təsviri və tarixi metoddan istifadə olunmuşdur. Əsərdən çıxış edərək nümunələrin təsvir edilməsində bu metodların rolu əks olunub. Araşdırma zamanı problemin həlli məsələsində elmi metoddan istifadə olunmuşdur.

***Giriş:*** Azərbaycan folkloru xalqın yüksək mənəvi-əxlaqi dəyərlərini, etik və estetik düşüncəsinin ən aparıcı meyllərini özündə əks etdirir. Azərbaycan folklorşünaslığı xalq məişətinin, mərasimlərin ayrılmaz tərkib hissəsinə çevrilmiş arxaik nəğmələr- *bayatılar, atalar sözləri, ovsunlar, dualar, ağılar, laylalar, sayaçı sözlər, holavarlar, lirik xalq mahnıların* poetik imkanlarının təcəssümüdür.

Xalq yazıçısı İsmayıl Şıxlı düzgün qeyd edir ki, Mehdi Hüseyni ədəbi tənqidin və ədəbiyyatşünaslığın bütün sahələri maraqlandırmışdır. Ədəbi ictimaiyyətimizi düşündürən elə bir sahə yoxdur ki, orada Mehdi Hüseynin səsi eşidilməsin. Ədibin

yaradıcılığının böyük bir qismini onun tənqidi-nəzəri əsərləri təşkil edir. Mehdi Hüseyn ədəbiyyat tariximizdə mübariz bir tənqidçi kimi yaşayır…[5.]

Bir sözlə, romanın alqat ideyasının əks etdirilməsində iştirak edən folklorluq şaxələrinə spesifik cizgilərlə toxunulmuşdur. Abşeron romanında ədib kommunist əxlaqı, sosialist həyat tərzini və insan əməyini sadəlövh təsəvvürlərlə yaşayan Tahir obrazının timsalında əks etdirmişdir. Demək olar ki, yer verilmiş folklor janrları obrazların dilindən bədiiliyi artırmağa xidmət edir.

***Əsas mətn:*** Xalq ədəbiyyatının poetik imkanları Mehdi Hüseyn yaradıcılığında müəllifin özünəməxsus sənətkarlığı ilə təhlil edilmişdir. Görkəmli sənətkarın **"Abşeron"** romanında janrın üslub özəlliklərini işıqlandıran nümunələr öz əksini tapır. Xüsusilə, folklor kontekstindən çıxış edərək nümunələr üzərində tədqiq olunur. Beləliklə, istifadə olunmuş folklor janr formaları əsərin məzmununu ifadə etmək etibarı ilə hansı məqsəd daşıdığı təhlil edilir:

*ATALAR SÖZLƏRİ*

*Atalar sözləri istənilən etnik mədəniyyət tipində bütün zamanlar boyunca vahid və dəyişməz funksiya kimi kollektiv təcrübə və biliyin ötürülmə və yaşama vasitəsi olmaq vəzifəsini yerinə yetirmişdir.* [1, s.3]

~ *-Vallah mənim adım çıxıb. Yaxşı deyiblər ki, çaqqal var gödən dağıdır, qurdun adı bədnandır.* [3, s.23]

Atalar sözündən çıxış edərək Səməndər obrazının ifadə etmək istədiyi fikrin bədiiliyini daha da artırmışdır. Fikrin məzmunu Səməndərin çox yeməsindən dolayı kök olması ancaq bunu ürəyinin təmiz olmasından irəli gəldiyini söyləyir. Müəllif atalar sözünü obrazın timsalında ironik şəkildə söyləmişdir.

Əsərin III fəslində buruqda vəziyyətin gərginləşdiyini bədii detallarla təsvirində atalar sözlərindən istifadə olunub. Xozeynlərin əlindən padşaha məktub yazan fəhlələrin daxili gərginliyi monoloqlarında keçən folklorluğun incə cizgiləri təhlil olunur. Belə ki, şikayət etsələr belə heç bir geri dönüş ala bilmirlər:

~ *- Atalar demişkən, it-itin ayağını basmaz.* {atalar sözləri} [3, s.115]

*BAYATI*

~ *Fələyin zindanı kürəyimdədir,*
*Zalımın zənciri biləyimdədir.*
*Qonağın yerini soruşursunuz?*
*Yarın ürəyimi, ürəyimdədir.* [3, s.70]

Ananın Tahir obrazına qarşı duyduğu hiss və duyğularını bayatı formasında ifadə etməsi romanın bədii poetikasını ahənglə boyamışdır. Xalq ədəbiyyatında bayatının yeri müəllifin sənətkarlığı ilə düz mütənasibdir. Bayatı xalq folklor janrının ayrılmaz tərkib hissəsi kimi romanda da işıqlandırılmışdır.

*MƏSƏL*

Xalq yaradıcılığından biri olan məsəllərdə müəyyən bir həyat hadisəsi haqqında ümumiləşdirilmiş və məcazi fikir öz əksini tapır. Məsəllər hər hansı bir

hadisənin və ya əhvalatın ibrətamiz yekunu kimi qiymətləndirilir. Əsərdə qoca ustanın buruqlardakı işlərdən artıq əlini üzdüyünü ifadə etməkdədir:

~ - *Qoca, köyrək səsinin titrədiyini duyub susdu və yalnız sonradan-sonraya əlavə etdi. – Məsəl var, sən saydığını say, gör fələk nə sayır... Təki sən deyən olsun.* [3, s.104]

Əsərin VII fəslində katib və Qüdrət obrazları arasında keçən dialoqda katibin fəhlələrə qarşı amansız iş rejimindən bəhs etdiyini görürük. Fəhlə işçilərinə aid olmayan işlərin belə onlara təhvil edib yüklərinin çoxaldılmasına qarşı etirazını folklor janrı olan məsəldən çıxış edərək ifadə edir:

~ -*Məsəl var: "Çobanın könlü olsa, təkədən pendir tutar".* [3, s.246]

Məsəlin ümumi məzmunu insan istədiyi zaman riskli və çətin hesab edilən hərşeyi etmə potensialına malik olmasını ifadə etməkdədir.

*XALQ NƏĞMƏLƏRİ*

Mehdi Hüseyn aşıq yaradıcılığı, söz-sənət mədəniyyətinin geniş yayılmış bölgəsində böyüyüb boya-başa çatmış, xalq şeir nəğməsinə meyilli şair yaradıcılığında da bu janrı əks etdirmişdir.

**"Uca barıdan aşaram"** havası – xalq şeir nəğməsi obrazın xarakterinin açılmasında parlaq nümunədir. Aşıq xalq ifasından çıxış edərək surətin siması oxucuların diqqətinə çatdırılır. Həmçinin bu folklor ədəbi nümunə Əbdürrəhim bəy Haqverdiyevin "**Dağılan tifaq"** əsərində də yer verilmişdir:

*S ə l i m b ə y (çırtıq çalıb oxuyur).*

~ *Uca barıdan aşaram,*
*Yanıma kəniz qoşaram,*
*Həmzəni mənə versələr,*
*Cibinin pulun udaram,*
*Atma daş, vurma daş, nar giləsi...* [2, s.51]

Azərbaycan folklor ədəbi mühitində xalq şeir yaradıcılığına, aşıq havasına geniş yer verilmişdir. Bədii cizgilərin misralarla təsvir edilməsi roman yaradıcılığının estetikasını yüksəltmişdir.

*OXŞAMALAR*

**Oxşamalar** nazlamaq, əzizləmək məqsədilə oxunan nəğmələrə söylənir. Bu xüsusiyyətə görə *"nazlama"* da deyilir. Romanda Tahirə məktub yazan ana obrazının yazısında ifadə olunmuşdur. Müəllif iki obrazın hiss və düşüncələrini bu cür təsvir etmişdir:

~ *Əzizim balabanı,*
*Asta çal balabanı.*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?* [3, s.100]

***Nəticə:*** Görkəmli nasir, dramaturq və tənqidçi Mehdi Hüseyn əsərlərində, xüsusilə roman və pyeslərində folklor janrlarından məharətlə istifadə etmişdir.

"Abşeron" romanında folklor janrlarından- epik və lirik, həmçinin arxaik və çağdaş motivlər poetik tutumu ilə yüksək pafosda göstərilib. "Abşeron" romanı həm məzmun, həm də mahiyyət etibarı ilə bitkin və kamil nəsr örnəyidir. Mehdi Hüseyn romanlarında folklor motivlərini müntəzəm formada təsvir etməyə çalışmışdır. Əsərdə baş verən kortəbii qüvvələr şifahi xalq yaradıcılığından çıxış edərək real həyat hadisələri ilə səsləşdirilmişdir.

### *Ədəbiyyat siyahısı*

1. Atalar sözləri. Bakı, "Nurlan", 2013, 476 səh.
2. Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 504 səh.
3. Mehdi Hüseyn. "Seçilmiş əsərləri", üç cilddə, II cild. Bakı, "AVRASİYA PRESS", 2005, 312 səh.
4. Zəkiyyə Qiyasbəyli. Mehdi Hüseyn müasirlərinin gözü ilə. //Ədəbiyyat qəzeti.-2009.-22 may.-S.3.

***Narmin Elshan Mahammadova***
***Odlar Yurdu University***

## MEHDI HUSSEIN'S NOVEL "ABSHERON" FOLKLORE GENRES IN THE STRUCTURE OF THE STORY

***Keywords:*** *Mehdi Huseyn, folklore, novel, genre, narration.*

**Summary**

The genre of folklore is the oral poetic creativity of peoples. It is in expressing the meaning of folk knowledge. It is a product of collective creativity. It is literature whose authors are unknown. It means culture that is filtered from the soul of the Azerbaijani people. Prominent writer, prose writer, playwright Mehdi Huseyn (1909-1965) focused on folklore genre in his work. He skillfully used folklore motifs in the writer's novels, plays and stories. Speaking from folk art, he touched human labor and people's thinking.

***The content of the study:*** the article shows how skillfully the author expresses poetic creativity, folklore literary examples. The life boards described in the novel" Absheron " are mutually reflected by the author's creativity. Thus, Proverbs, sayings and, which are included in the folklore genre.s purpose of use, its role in serving the opening of content has been introduced.

***Relevance of the topic:*** the structure of narration and folklore in Mehdi Hussein's novel "Absheron" has not been analyzed. It is precisely for what purpose the structure of narration is used in the novel" Absheron", to reveal all the principles of

the existence of folklore in the work. The novel "Absheron" was analyzed in accordance with the structure of folklore genre creativity.

***Methods of research:*** descriptive and historical methods were used in the analysis of the work. The role of this method in describing examples is reflected in the work.

**Нармин Эльшан гызы Магомедова**
**Университет Одлар Юрду**

## РОМАН МЕХТИ ГУСЕЙНА "АБШЕРОН" ФОЛЬКЛОРНЫЕ ЖАНРЫ В СТРУКТУРЕ ТАХКИ

***Ключевые слова:*** *Мехди Хусейн, фольклор, роман, жанр, тахкия.*

**Резюме**

Фольклорный жанр народов, устного поэтического стало творчество. Народные знания смысл выражения продолжается. Коллективный творческий продукт. Авторы неизвестные литература. Азербайджанского народа, духом и süzülən культуры означает. Выдающегося литератора, прозаик, драматург Мехти Гусейн (1909-1965) в творчестве фольклорный жанр держал в центре внимания. Скажу, что романы, пьесы и рассказах фольклорных мотивов умело пользовался. Выступая в народном творчестве, он обратил внимание на человеческий труд, народное мышление.

***Исследования содержание:*** в статье автор поэтического творчества, фольклора, литературных примеров, насколько мастерски выражение указаны. “Абшерон” в романе были описаны жизнь досках автора с творчеством взаимно отражены. Таким образом, фольклор, жанру, входящих в пословицы, məsəllərin и.и т. д. цель использования, содержания открытию услуги в роль, был представлен.

***Актуальность темы:*** Мехти Гусейна “Апшерон” в романе təhkiyə структура, фольклор анализа не было. Именно “Абшерон” в романе təhkiyə структуры с какой целью использования, произведениях фольклора все сведения, принципы aşkarlamaqdan состоит. “Абшерон” - роман фольклорный жанр, творчество структуру в соответствии с проанализирована.

***Методы исследования:*** при анализе работы использовался описательный и исторический метод. Произведения, выступая образцов описаны в роль этого метода отражены.

**Rəyçi: prof. Rüstəm Kamal**